**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FOLKLOR İNSTİTUTU**
**KARS KAFKAS UNİVERSİTESİ DEVLET KONSERVATUARI**
**ANKARA MÜZİK ve GÜZEL SANATLAR UNİVERSİTESİ AŞIKLIK GELENEĞİ UYGULAMA ve ARAŞTIRMA MERKEZİ**
**TOVUZ RAYON XEYRİYYƏ CƏMİYYƏTİ**

# MİKAYIL AZAFLININ XATİRƏSİNƏ HƏSR OLUNMUŞ "AŞIQ SƏNƏTİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ SİMPOZİUM

**Bakı şəhəri, 17 mart 2025-ci il**

2024-cü ildə Azərbaycan aşıq sənətinin ustad sənətkarlarından olan Mikayıl Azaflının anadan olmasının 100 ili tamam olmuşdur. Ustad sənətkarın 100 illik yubileyi ilə əlaqədar AMEA Folklor İnstitutu, Kars Kafkaz Devlet Konservatoriyası, Ankara Müzik ve Güzel Sanatlar Universitesi Aşıklık Geleneği Uygulama ve Araştırma Merkezi və Tovuz rayon Xeyriyyə Cəmiyyətinin birgə təşkilatçılığı ilə 17 mart 2025-ci il tarixində onlayn və üz-üzə iştirak olmaqla **Mikayıl Azaflının xatirəsinə həsr olunmuş "Aşıq sənətində milli-mənəvi dəyərlər"** mövzusunda beynəlxalq elmi simpozium keçirmək nəzərdə tutulmuşdur.

Ustad Aşıq Mikayıl Azaflı 21 mart 1924-cü ildə Tovuz rayonunun Azaflı kəndində anadan olub. Mikayıl Azaflı böyük şövqlə yazıb-yaradan, aşıq sənətini inkişaf etdirən, sağlığında klassikləşən ustad aşıq idi. Erkən yaşlarında "Coşğun" təxəllüsü ilə şeirlər yazan aşıq-şair az sonra öz doğma kəndinin adını təxəllüs götürüb.

Mikayıl Azaflının yaratdığı "Azaflı dübeyti", "Azaflı gözəlləməsi", "Azaflı sənəti", "Azaflı dünyası", "Azaflı gəraylısı", "Azaflı himni", "Mikayılı", "Azaflı dağları", "Azaflı bəhri", "Məzahiri", "Azaflı müxəmməsi", "Şah sarayı", "Ozan marşı", "Azaflı Sarıteli", "Azaflı gülü", "Tovuzu", "Qürbəti" kimi saz havaları dillər əzbəri olmuşdur. Bununla yanaşı ustad sənətkarın yaratmış olduğu "Azaflı və Narıncı Xatun", "Mənzum Səlim şah", "Əmr Ərsalan" dastanları da vardır.

Azaflı Ümumittifaq Musiqi Cəmiyyətinin Rəyasət Heyətinə üzv seçilmişdir və ilk dəfə Moskvada 1954-cü ildə festivalda iştirak edib, medalla təltif olunmuşdur.

Aşıq Mikayıl Azaflının kommunizmə qarşı çıxması şeirlərində açıq-aşkar görünürdü. Elə bu səbəbdən də o, 1961-ci ildə guya oğurluq edib deyə şərlənərək, həm də evində silah saxlamaqda təqsirli bilinərək dörd il azadlıqdan məhrum edilmişdir. Lakin oğurluq etməsi sübuta yetirilməmişdir. Onun zindan həyatını təsvir edən şeirləri aşıq hələ zindanda ikən dillər əzbəri olmuşdu.

Azaflı poeziyası xalq arasında geniş yayılsa da, XX əsrin 80-ci illərinin ortalarına qədər mətbuat üzünə həsrət qalmışdı. Bu vaxt artıq sovet quruluşunun dayaqları laxlamağa başlamışdı. Odur ki, 80-ci illərdə Azərbaycan Televiziyasında rəhbər vəzifədə işləyən yazıçı Nahid Hacıyevin köməyi sayəsində aşığın iştirakı ilə onun yaradıcılığına həsr olunmuş bir saatlıq veriliş efirə verildi. Veriliş böyük maraqla qarşılandı. Sonralar "Yazıçı" nəşriyyatı sənətkarın "Qoca qartal" (1987) adlı kitabını

çap etdi. 1988-ci ildə A.Şərifzadə adına Aktyor evində Azaflının özünün iştirakı ilə məclis keçirildi və geniş şəkildə televiziya vasitəsilə nümayiş etdirildi. Azaflının anadan olmasının 70 illiyi isə sənətkar dünyasını dəyişəndən sonra, təntənəli şəkildə 1994-cü ildə Filarmoniyada, 75 illiyi Yazıçılar Birliyində, 2004-cü ildə aşığın 80 illiyi Mədəniyyət Nazirliyinin xətti ilə Dövlət Musiqili Komediya Teatrında qeyd olunmuşdu.

1984-cü ilin mart ayında aşıqların IV qurultayında sənətkara böyük ehtiram göstərilərək, çıxış etmək üçün söz verilir və onun yaddaqalan maraqlı çıxışı olduqca müsbət qarşılanır. Qurultayda Azaflının aşıq sənətinin inkişafında göstərdiyi fədakarlıq və xidmətləri xüsusi qeyd edilir və o, Aşıqlar Birliyinin sədr müavini seçilir. Novruz bayramı şənliklərində Ortaq Türk tarixinin mədəniyyət abidəsi müdrik Dədə Qorqud obrazını məhz Mikayıl Azaflı canlandırırdı. 1989-cu il may ayının 17-də Azaflı Mikayıl ədəbiyyat və incəsənətin inkişafında böyük xidmətlərinə görə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı ilə “Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülür.

Ustad sənətkar 12 oktyabr 1990-cı ildə dünyasını dəyişmişdir.

Mikayıl Azaflının xatirəsinə həsr olunmuş “Aşıq sənətində milli-mənəvi dəyərlər” mövzusunda beynəlxalq elmi simpoziumda iştirak etmək istəyənlər

- **Mikayıl Azaflının sənət yolu**
- **Aşıq sənətində milli-mənəvi dəyərlər**
- **Aşıq sənətinin tarixi kökləri və problemləri**

mövzularında özət mətnlərini 25 fevral 2025-ci il tarixinə qədər **azafli2025@gmail.com** e-mail ünvanına göndərə bilərlər.

## TƏŞKİLAT KOMİTƏSİ

**SƏDARƏT:**

Prof. Dr. Ali KAFKASYALI – Ərzincan Binəli Yıldırım Universiteti Ədəbiyyat fakültəsi və Türk dili və Ədəbiyyatı Bölümü Başkanı

Fil.ü.f.d., dos. Afaq RAMAZANOVA – AMEA Folklor İnstitutunun direktor müavini

Musa SÜLEYMANOV – Tovuz Xeyriyyə Cəmiyyətinin sədri (Azərbaycan)

Çingiz ABBASOV – Tovuz Xeyriyyə Cəmiyyətinin sədr müavini (Azərbaycan)

Namazəli MƏMMƏDOV – Tovuz Xeyriyyə Cəmiyyətinin sədr müavini (Azərbaycan)

**ELMİ HEYƏT:**

Adem BALKAYA – Prof. Dr., Qars Qafqaz Dövlət Konservatoriyası (Türkiyə)

Ainur NOGAYEVA – Prof. Dr., Ərzincan Binəli Yıldırım Universiteti (Türkiyə)

Ali KAFKASYALI – Prof. Dr., Ərzincan Binəli Yıldırım Universiteti (Türkiyə)

Arzu NAĞIYEV – Azərbaycan Respublikası Milli Məclisinin deputatı (Azərbaycan)

Aydın HÜSEYNOV – Azərbaycan Respublikası Milli Məclisinin deputatı (Azərbaycan)

Bahadır GÜCÜYETER – Prof. Dr., Atatürk Universiteti (Türkiyə)

Bayram DURBİLMƏZ– Prof. Dr., Nevşəhər Hacı Bektaş Vəli Universiteti (Türkiyə)

Bilal TUNC – Prof. Dr., Ağrı İbrahim Çeçen Universiteti (Türkiyə)

Erhan ÖZDEN – Prof. Dr., Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin Rektoru (Türkiyə)

Əfzələddin ƏSGƏR – Fil.e.d., prof., AMEA Folklor İnstitutu (Azərbaycan)

Əziz ƏLƏKBƏRLİ – Azərbaycan Respublikası Milli Məclisinin deputatı (Azərbaycan)

Feyzan Göher BALÇİN – Prof. Dr., Nigde Ömer Halisdemir Universiteti (Türkiyə)

Gökan EKİM – Prof. Dr., Ankara Âşıklık Geleneği Uygulama ve Araştırma Merkezi Müdürü (Türkiyə)

Hüsnü KAPU – Prof. Dr., Qars Qafqaz Universiteti Rektoru (Türkiyə)

İlqar İMAMVERDİYEV – Prof. Dr., Gaziantep Universiteti (Türkiyə)

İşenbek SULTANALİEV – Prof. Dr., Yusup Balasagun Kırgız Milli Universitesi Fen Edebiyat Fakültesi (Qırğızıstan)

Jabbar İŞANKUL – Prof. Dr., Özbəkistan Elmlər Akademiyası Əlişir Nəvai Dövlət Ədəbiyyat Muzeyinin müdiri (Özbəkistan)

Qəzənfər PAŞAYEV – Fil.e.d., prof., AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu (Azərbaycan)

Mahmud ALLAHMANLI – Fil.e.d., prof., Azərbaycan Dövlət Pedaqoji Universiteti (Azərbaycan)

Mayramgül DIYKANBAY – Prof. Dr., Atatürk Üniversitesi, Edebiyat Fakültesi, Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü (Qırğızıstan)

Mitat DURMUŞ – Prof. Dr., Qars Qafqaz Dövlət Konservatoriyası (Türkiyə)

Ramazan QAFARLI – Fil.e.d., prof., AMEA Folklor İnstitutu (Azərbaycan)

Saim SAKAOĞLU – Prof. Dr., Konya Selcuk Universiteti (Türkiyə)

Seyfəddin RZASOY – Fil.e.d., prof., AMEA Folklor İnstitutu (Azərbaycan)

Sevilay ÇİNAR – Prof. Dr. Ankara Hacı Bayram Veli Universiteti (Türkiyə)

Sulayman KAYIPOV – Prof. Dr., Kırgız Cümhuriyeti Milli Bilimler Akademisi, Felsefe, Hukuk ve Siyasi Sosyal Araştırmalar Enstitüsü Baş Araştırmacısı (Qırğızıstan)

Şakir İBRAYEV – Prof. Dr., Hoca Ahmet Yasevi Uluslararası Türk-Qazax Universiteti (Qazaxıstan)

Vaqif SULTANLI – Fil.e.d., prof., Bakı Dövlət Universiteti (Azərbaycan)

Yavuz Selim KAFKASYALI – Prof. Dr., Qars Qafqaz Dövlət Konservatoriyası (Türkiyə)

Ali PARİM – Ögr. Gör., Iğdır Universiteti (Türkiyə)

Arzu Şeyda GÜVEN – Dr. Öğr. Üyesi., Qars Qafqaz Dövlət Konservatoriyası (Türkiyə)

Aşıq Maksut FƏRYADİ – Xalq Ozanları Mədəbiyyət evi başqanı (Türkiyə)

Aşıq Məhəmməd İBADİ (ALIŞIQ) – Təbriz Aşıqlar Birliyinin sədri (İran)

Elçin ABBASOV – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Elxan MƏMMƏDLİ – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Əli Şamil – AMEA Folklor İnstitutu (Azərbaycan)

Fidan QASIMOVA – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Halil ÇETİN – Doç. Dr., Hoca Ahmet Yasevi Uluslararası Türk-Qazax Universiteti (Qazaxıstan)

Hamza KOLUKISA – Doç. Dr., Atatürk Universiteti (Türkiyə)

İlhamə QƏSƏBOVA – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

İlkin GULUSOY – Doç. Dr., Qars Qafqaz Dövlət Konservatoriyası (Türkiyə)

Qalib SAYILOV – Fil.e.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Leyla MƏMMƏDOVA – Fil.e.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Mətanət ABBASOVA – Fil.e.d. dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Məti OSMANOĞLU – Fil.ü.f.d., dos., Bakı Dövlət Universiteti (Azərbaycan)

Nazgül İSABAYEVA– Doç. Dr., Erzincan Binəli Yıldırım Universiteti (Türkiyə)

Tolgahan TİKTAŞ –Arş. Gör. Ankara Musiqi və Gözəl Sənətlər Universiteti (Türkiyə)

Vəfa İBRAHİM – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutu (Azərbaycan)

Zafer AKINCIOĞLU – Dr. Öğr. Üyesi Qars Qafqaz Dövlət Konservatoriyası (Türkiyə)
Fulya SOYLU BAHÇELİYEVLƏR – Dr. Öğr. Üyesi Nigde Ömer Halisdemir Universiteti (Türkiyə)
Aşıq Şiar AĞDAŞAN – (Almaniya)

**KATİBLİK:**
Fil.ü.f.d. Şəhla HÜSEYNLİ – AMEA Folklor İnstitutu (Azərbaycan)
Süreyya ƏLİZADƏ – AMEA Folklor İnstitutu (Azərbaycan)
Aygün QURBANOVA – AMEA Folklor İnstitutu (Azərbaycan)
Lalə Bədirova-ŞABANOVA – AMEA Folklor İnstitutu (Azərbaycan)

**YAZI QAYDALARI**

**Başlıq:** Azərbaycan dilində başlıq qalın və böyük hərflərlə, 12 punto, ortalanmış;

İngilis başlığı Azərbaycanca başlığın altında, normal, yalnız ilk hərflər böyük hərflə yazılır, 11 nöqtə olmalıdır və mərkəzləşməlidir. Məqalənin adı maksimum 12 sözdən ibarət olmalıdır.

**Müəllifin adı**: Müəllifin adı, ata adı və soyadı sağa düzülmüş, qalın, 11 punto şriftlə yazılmalıdır. Müəssisələr, fakültə, ORCID ID və müəlliflərin e-poçt ünvanları qeyd olunmalıdır.

**Özət:** Məqalədə Azərbaycan və ingilis dillərində ən azı 250-300 sözdən ibarət özət olmalıdır. Ən azı 4-5 sözdən ibarət Azərbaycan və ingilis dillərində açar sözlər olmalıdır. Özət 12 şrift ölçüsündə yazılmalıdır. Özətdə tədqiqatın məğzi, məqsədi, metodu və nəticələri problem kimi qoyulmalı və düşündürücü olmalıdır. Simpoziumda Türkiyə tərəfdən, eləcə də digər türk dövlətlərindən iştirak etmək istəyən elm adamları özət mətnini Türkiyə türkcəsi və ingilis dilində yaza bilərlər.

**Səhifənin tərtibatı**: Məqalələr Microsoft Word proqramında yazılmalı və səhifə strukturları aşağıdakı kimi təşkil edilməlidir:

**Kağız Ölçüsü:** A4 (21-29,7 sm)

**Haşiyələr**: Bütün kənarlar 2,5 sm.

**Şrift**: Times New Roman

**Şrift üslubu**: Normal

Ölçü (normal mətn): 12

Ölçü (haşiyə mətni): 10

Paraqraf intervalı: əvvəlcə 0 pt, sonra 6 pt

**Sətir aralığı**: 1,5 (bir yarım)

**Bölmə başlıqları**: Bütün alt başlıqların ilk hərfləri böyük və qalın olmalıdır. Əgər nömrələnməyə üstünlük verilirsə, nömrələr “Giriş” və “Nəticə” bölmələrinə əlavə edilməlidir.

**Bölmə başlıqları**: Bütün alt başlıqların ilk hərfləri böyük və qalın olmalıdır.

Əgər nömrələnməyə üstünlük verilirsə, nömrələr “Giriş” və “Nəticə” bölmələrinə əlavə edilməlidir.

Cədvəllər və rəqəmlər varsa: Cədvəl və ya rəqəmlərin nömrələri və adları sadəcə aşağıda olmalıdır.

Birbaşa sitatlar dırnaq içərisində yerləşdirilməlidir. Hər sətirdə 2,5 sətirdən az sitatlar arasında; 2,5 sətirdən uzun sitatlar sətrin, blokun sağından və solundan 1,5 sm içəri yerləşdirilməlidir.

1 sətir intervalı ilə 10 punto şriftlə yazılmalıdır. Mətnin sonunda müəlliflərin soyadlarına uyğun olaraq əlifba sırası ilə düzülməlidir.

İstifadə olunan mənbənin müəllifi əvvəlcə soyadı ilə göstərilməlidir.

Mətn daxilində istinadlar mötərizədə aşağıdakı kimi yazılmalıdır:
(Kafkasyalı, 1988:16)
(Köprülü, 1950: 58)
(Sakaoğlu və Alptekin, 2014: 389)
**İkidən çox müəllifi olan nəşrlərdə mətnə yalnız birinci müəllifin soyadı və yayım tarixi (1980: 26) bu qaydada daxil edilərək yazılmalıdır. Mətnin içində müəllifin adı, soyadı yazılırsa, sadəcə nəşr tarixi yazılmalıdır:
Boratav (1969: 42), …
**Çap tarixi göstərilməyən əsərlərdə və əlyazmalarda yalnız müəlliflərin soyadları, müəllifi göstərilməyən ensiklopediya və s. əsərlərdə əsərin adı yazılmalıdır.

**İSTİNADLAR**
**kitab**
Köprülü, M. F. 1999. Ədəbiyyat araşdırması. Ankara: Türk Tarix Kurumu Çap evi
Mikayıl, A. 2008. Qoca Azaflıyam. (tərtibçilər Q. Paşayev, M. Azaflı) Bakı: Nurlan nəşriyyatı
Mikayıl, A. "Qoca qartal", 1987. Yazıçı nəşriyyatı, Bakı
Ali, K. 1988. "Koca Kartal Azaplı", "Sistem Ofset", Ankara
Ali, K. 1996. Mikayıl Azaflının Hayatı sanatı eserleri. Erzurum
Məmməd, Q. 2000. "Azaflı yaradıcılığı dünyanın tarixi abidəsidir" Bakı
İlqar, İ. 2008. Aşıq Mikayıl Azaflının saz havaları. "Nafta-Press" nəşriyyatı. Bakı

**İnternetdə bir əsərə istinad etmək: Müəllifin soyadı, adı. Mövzu başlığı, İnternet ünvanı. .tcmb.gov.tr/ (İstifadə tarixi: 04.02.2023)

**ÖNƏMLİ TARİXLƏR:**
Özətlərin son göndərilmə tarixi: 25 fevral 2025
Özətlərin cavablandırılması: 28 fevral 2025
Proqramın elanı: 15 mart 2025
Məruzə mətninin tam göndərilmə tarixi: 15 mart 2025
Simpoziumun keçirilmə tarixi: 17 mart 2025

**Qeyd:** Simpoziumda onlayn şəkildə iştirak pulsuzdur. Üz-üzə iştirak etmək istəyənlərin yol xərcləri özlərinə aiddir.
Yazı dili: Azərbaycan və Türkiyə türkcəsi, rus dili.
Simpozium materialları PDF şəklində onlayn yayımlanacaqdır.
Özətləri: **azafli2025@gmail.com** ünvanına göndərə bilərsiniz.
Əlaqə nömrəsi: +994504281747

## Təşkilat Komitəsi